Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Salayev Kəramət Salam oğlunun Mərkəzi Seçki Komissiyasına 24 sentyabr 2015-ci il tarixli 07 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 25 sentyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 43 saylı Sumqayıt üçüncü seçki dairəsindən deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş, bitərəf Salayev Kəramət Salam oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 sentyabr 2015-ci il tarixli 07 saylı yazılı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 43 saylı Sumqayıt üçüncü seçki dairəsindən deputatlığa namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Salayev Kəramət Salam oğlu 2015-ci il sentyabrın 24-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək qeyd edilən seçki dairəsi dairə seçki komissiyasının 21 sentyabr 2015-ci il tarixli 14/40 saylı qərarını mübahisələndirmiş və həmin qərarın ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmişdir.

Tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma nəticəsində müəyyən edilmişdir ki, 43 saylı Sumqayıt üçüncü seçki dairəsi dairə seçki komissiyasının namizədliyin qeydə alınmasından imtina edilməsi barədə 21 sentyabr 2015-ci il tarixli 14/40 saylı qərarı əsassızdır.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 25 sentyabr 2015-ci il tarixli protokol və rəylərdən görünür ki, K.S.Salayevin namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imza vərəqələrində olan seçici imzaları Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara və saya uyğun toplanılmışdır. Belə ki, namizəd tərəfindən toplanılmış 550 seçici imzasından 486 imza etibarlı hesab edilmişdir. Bu isə Seçki Məcəlləsinin 147.1-ci maddəsinə görə Milli Məclisə seçkilərdə namizədin qeydə alınması üçün kifayət edir.

Göstərilənlərə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, 43 saylı Sumqayıt üçüncü seçki dairəsi dairə seçki komissiyasının Salayev Kəramət Salam oğlunun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 21 sentyabr 2015-ci il tarixli 14/40 saylı qərarı ləğv edilməli və o, həmin seçki dairəsindən namizəd kimi qeydə alınmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 43 saylı Sumqayıt üçüncü seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Salayev Kəramət Salam oğlunun 24 sentyabr 2015-ci il tarixli 07 saylı müraciəti təmin edilsin, onun namizəd kimi qeydə alınmasından imtinaya dair həmin dairə seçki komissiyasının 21 sentyabr 2015-ci il tarixli 14/40 saylı qərarı ləğv edilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**